

Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 29 yanvar 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

"20 yanvar - Xalqımızın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsi" mövzusunda dəyirmi masa keçirilib səh. 3

"XXI əsrin universitet modeli" mövzusunda onlayn müzakirə səh. 3

Professor Cahangir Məmmədli ilə görüş səh. 4

26 yanvar Dünya Ekoloji Təhsil Günüdür səh. 4

BDU-da "İşğal edilmiş ərazilərdə məcburi köçkünlərin pozulmuş hüquqlarına dair kompleks hesabat" hazırlayan işçi qrupun növbəti iclası keçirilib səh. 6

Xarı bülbülün yarı ŞUŞA səh. 6



Əziz Əliyevin anadan olmasının 124-cü ildönümüdür ➔Səh.2



BDU Çinin Anhui Universiteti ilə əməkdaşlıq edəcək ➔Səh.2



Professor koronavirusa qarşı peyvəndin hazırlanmasından danışıb ➔Səh.5



BDU-nun yeni yataqxanasında tələbələr üçün bütün şərait yaradılıb ➔Səh.4



BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin direktoru, tanınmış bəstəkar Nailə Mirməmmədlinin əziz xatirəsinə ➔Səh.8

## 20 Yanvar - Milli iradəmizin zəfər çaldığı gün




### 1990-cı ilin 20 Yanvar hadisələrindən 31 il keçir

Bu tarix Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Keçmiş Sovet Ordusunun həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaq.

Sovet Ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdıb əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq şəhərə daxil oldular. Bakıda yanvarın 20-si saat 00:00-da fövqəladə vəziyyət tətbiq edilməsi üzrə imzalanmış fərman səhər saat 5.30-da radio ilə elan olunmuşdur. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbçilər 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıb. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə- yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarda 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım və milis işçiləri də olub. 1990-cı il yanvar qurbanları simvolik olaraq "20 Yanvar şəhidi" adlanır. Ümumilikdə, Azərbaycanın 150 nəfər "20 Yanvar şəhidi" var.

O zaman yalnız Ümummilli Liderimiz Heydər Əliyev siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlib SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək kəskin bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra məhz Heydər Əliyevin təşəbbüsü ilə 1994-cu ilin yanvar ayında Milli Məclisdə faciəvi 20 Yanvar hadisələrinə siyasi qiymət verildi.

20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu. 2010-cu il yanvarın 20-də Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində memorial abidə kompleksinin açılışı oldu.

**(Ardı səh. 3)**

# Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyətini kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 yanvar 2021-ci il.*

# Əziz Əliyevin anadan olmasının 124-cü ildönümüdür



***1998-ci il may ayının 14-də dövlət səviyyəsində Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi keçirilərkən yubiley təntənələrində çıxış edən Prezident Heydər Əliyev Əziz Əliyevin zəngin həyat yolunun və dəyərli yaradıcılığının bizə məlum olmayan məqamlarının incəliklərindən ətraflı söhbət açmışdı.***

***1 yanvar Azərbaycanın görkəmli dövlət və elm xadimi, BDU-nun rektoru olmuş tibb elmləri doktoru, professor Əziz Əliyevin anadan olmasının 124-cü ildönümüdür.***

Əziz Məmmədkərim oğlu Əliyev 1897-ci il yanvarın 1-də İrəvan quberniyasında anadan olmuşdur. İlk təhsilini İrəvandakı rus-tatar məktəbində almışdır. O, İrəvan gimnaziyasını 1917-ci ildə qızıl medalla bitirmişdir. Petroqrad (indiki Sankt-Peterburq) Hərbi-Tibb Akademiyasında təhsil almışdır.

Ə.Əliyev 1918-ci ildə ermənilərin İrəvanda törətdikləri qırğınlardan qurtulmaq üçün ailəsini Naxçıvanın Şahtaxtı kəndinə aparmışdır. 1920-ci ilin iyun ayınadək Şahtaxtı kəndindəki tibb məntəqəsində həkim köməkçisi vəzifəsində işləmişdir. 1920-ci ilin iyulunda ermənilərin Şahtaxtı kəndini işğalından sonra ailəsi ilə birgə İranın Ərəblər (indiki Poldəşt) kəndinə pənah aparmış və oradakı tibb məntəqəsində həkim köməkçisi vəzifəsində çalışmışdır. 1921-ci ilin iyun ayında ailəsi ilə birlikdə Şahtaxtı kəndinə qayıtmış və iki il orada həkim köməkçisi işləmişdir. 1923-cü ilin mayında Bakıya köçmüş və 1927-ci ilin sentyabr ayınadək Azərbaycan SSR Xalq Komissarları Sovetində iş icraçısı, ümumi şöbənin müdiri, katib köməkçisi və katib vəzifələrində işləmişdir. İşləməklə yanaşı, Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsində təhsil almış və oranı 1927-ci ildə bitirmişdir.

Professor Əziz Əliyev 1928-1930-cu illərdə Xalq Səhiyyə Komissarlığında müalicə şöbəsinin müdiri və Klinik İnstitutun direktoru işləmişdir. 1929-cu ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1929-cu ilin dekabrında Xalq Səhiyyə Komissarının müavini təyin edilmişdir. 1932-1934-cü illərdə Tibb İnstitutunun rektoru, sonra isə Bakı şəhər səhiyyə şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1935-1936-cı illərdə yenidən Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru işləmişdir. 1937-ci ilin yanvar-iyun aylarında Bakı Dövlət Universitetinin rektoru olmuşdur. 1939-cu ildə doktorluq işini müdafiə etmişdir. 1938-1939-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsində, 1941-ci ilin aprelindən 1942-ci ilin sentyabrınadək Azərbaycan KP MK-nın katibi vəzifəsində çalışmışdır.

Əziz Əliyev 1941-ci ilin sentyabrından 1942-ci ilin aprel ayınadək SSRİ Dövlət Müdafiə Komitəsinin qərarı ilə polkovnik rütbəsində Sovet kontingentinin İrandakı 47-ci ordusunun Hərbi Şurasının üzvü və siyasi rəhbəri olmuşdur..

16 sentyabr 1942-ci ildə SSRİ Dövlət Müdafiə Komitəsi Əziz Əliyevin Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi və Mahaçqala Müdafiə Komitəsinin sədri vəzifəsinə təyin edilməsi haqqında qərar qəbul etmişdir. 1942-ci ilin sentyabrından 1948-ci ilin dekabrınadək Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində işləmişdir.

1949-1950-ci illərdə ÜİK(b)P MK-nın nəzdindəki İctimai Elmlər Akademiyasında dinləyici, sonra isə ÜİK(b)P MK-nın inspektoru olmuşdur. 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışmışdır.

1951-ci ilin sentyabrında Azərbaycan KP MK-nın Bürosunda valideynlərinin sosial mənşəyini və İranda qohumlarının olmasını gizlətdiyi bəhanəsilə şəxsi işinə yazılmaqla şiddətli töhmət verilmiş, vəzifəsindən azad edilərək Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsində işləməyə göndərilmişdir. 1952-ci ilin oktyabrından 1954-cü ilin 3 mart ayınadək Sabunçu rayonundakı Çaparidze adına 3 №-li Klinik Xəstəxananın baş həkiminin müavini vəzifəsində çalışmışdır.

1954-cü ilin martından 1956-cı ilədək yenidən Bərpa Cərrahlığı və Ortopediya İnstitutunun direktoru vəzifəsində işləmişdir. 1956-cı ildən ömrünün sonunadək Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində fəaliyyət göstərmişdir.

Əziz Əliyev dəfələrlə SSRİ, Azərbaycan SSR və Dağıstan MSSR Ali Sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

Görkəmli alim 1962-ci il iyulun 27-də vəfat etmiş, Bakıda I Fəxri xiyabanda dəfn edilmişdir.

Azərbaycan SSR Nazirlər Sovetinin 27 sentyabr 1962-cı il tarixli qərarı ilə Həkimləri Təkmilləşdirmə İnstituna Əziz Əliyevin adı verilmişdir. Azərbaycanda və Dağıstanda bir sıra küçələr onun adını daşıyır.

1998-ci il mayın 14-də dövlət səviyyəsində Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi keçirilərkən yubiley mərasimində çıxış edən Prezident Heydər Əliyev Əziz Əliyevin zəngin həyat yolunun və dəyərli yaradıcılığının bizə məlum olmayan məqamlarının incəliklərindən ətraflı söhbət açmışdır.

Bakı Dövlət Universitetinin rektoru və nüfuzlu professoru olan Əziz Əliyevin işıqlı xatirəsi daim ehtiramla anılacaq, əziz xatirəsi onu sevənlərin qəlbində həmişə yaşayacaqdır.

# BDU Çinin Anhui Universiteti ilə əməkdaşlıq edəcək

***Yanvarın 25-də Bakı Dövlət Universiteti ilə Çinin Anhui Universiteti arasında Konfutsi İnstitutu ilə əməkdaşlıq müqaviləsi imzalanıb.*** Müqavilə iki universitet ilə BDU nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu arasında ikitərəfli elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq və əlaqələrin möhkəmləndirilməsini nəzərdə tutur. Eyni zamanda, səmimi məşvərət, tam hüquqilik və qarşılıqlı səmərəlilik prinsipləri əsasında tərəflərin hüquq, öhdəlik, əməkdaşlıq qaydalarını müəyyən etmək və bununla da Konfutsi İnstitutunun uğurlu fəaliyyətini təmin etmək məqsədi daşıyır.

***Anhui Universitetinin rektoru Kuanq Quanqli*** beynəlxalq əlaqələrin universitetlərin inkişafındakı rolundan, dünyanın müxtəlif təhsil və elm ocaqları ilə birlikdə həyata keçirilən layihələr və proqramlardan bəhs edib, Azərbaycanla Çin arasında olan dostluq, ikitərəfli əməkdaşlıq əlaqələrindən də söz açıb, qarşılıqlı mübadilələrin həyata keçiriləcəyindən məmnunluq ifadə edib.

***Onlayn görüşdə BDU-nun rektoru Elçin Babayev*** Universitetin fəaliyyəti, buradakı mövcud təhsil və tədris prosesi haqqında qonaqlara ətraflı məlumat verib. O, Çin Universitetləri ilə BDU arasında xüsusilə təhsil sahəsindəki ikitərəfli geniş və qarşılıqlı faydalı əlaqələrə diqqət çəkib. BDU-da tələbələrin bilik və bacarıqlarını artırması üçün hər cür şərait yaradıldığını qeyd edən rektor ümumiyyətlə, ölkəmizdə son illər elm-təhsil sahəsində görülən işlərdən, nailiyyətlərdən də söz açıb.

# 20 Yanvar - Milli iradəmizin zəfər çaldığı gün

*(əvvəli 1-ci səhifədə)*

***Bakı Dövlət Universitetinin 2 saylı tədris binasının qarşısında 20 Yanvar Şəhidlərinin xatirəsinə ucaldılmış abidə bu faciə qurbanlarının xatirəsinə ehtiramın növbəti nümunəsidir.***

Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsi hər il Ümumxalq Hüzn Günü kimi qeyd edilir.

20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq və milli mübarizə tariximizin növbəti səhifəsidir. Xalq milli birliyini qoruyaraq müstəqil dövlət qurmaq yolunda mübarizəsini davam etdirdi. Şəhidlərimizin ruhu, milli şüurumuz, genetikamız bizdən - hər bir azərbaycanlıdan müstəqil dövlətimizi qorumağı və inkişaf etdirməyi tələb edir.

Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də



Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın “Azadlıq” meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirib. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edib.

1994-cü il martın 29-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Qanlı Yanvar faciəsi XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürüdür, ölkəmizin suverenliyi və azadlığı uğrunda şəhid olan qəhrəmanların əziz xatirəsinin əbədi yaşayacağına əminik. Keçmiş Sovet ordusunun xalqımızın silahsız övladlarını, mülki əhalini vəhşicəsinə qətlə yetirdiyi bu hərbi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olaraq tarixin yaddaşında qalacaq.

Bu gün xatirələrini daim əziz və uca tutduğumuz şəhidlərimizin ruhu şaddır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin hərbi və siyasi bacarığı nəticəsində, qüdrətli ordumuzun rəşadəti sayəsində, xalqın həmrəyliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qarabağ zəfəri ilə şəhidlərimizin intiqamı alındı və onların qanı yerdə qalmadı.

20 Yanvar qurbanlarının və o cümlədən torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizə uca Allahdan rəhmət diləyirik!

# “20 yanvar - Xalqımızın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsi” mövzusunda dəyirmi masa keçirilib

***Bakı Dövlət Universitetində “20 yanvar - Xalqımızın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsi” mövzusunda onlayn dəyirmi masa keçirilib. İlk olaraq 20 Yanvar qurbanlarının və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

*BDU-nun rektoru Elçin Babayev çıxışında Qanlı Yanvar faciəsinin XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü olduğunu qeyd edərək ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanların əziz xatirəsinin əbədi yaşayacağını bildirib. Faciə zamanı keçmiş Sovet ordusunun xalqımızın silahsız övladlarını, mülki əhalini vəhşicəsinə qətlə yetirdiyini bildirən rektor bu hərbi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu diqqətə çatdırıb.* Rektor bildirib ki, 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə həm faciə, həm də qanla yazılmış şanlı mübarizə salnaməsi kimi daxil olub, müstəqillik, azadlıq uğrunda mübarizəsinin rəmzinə çevrilib. Qanlı hadisədən 31 il keçməsinə baxmayaraq, xalqımızın o dəhşətli günlərin ağrıacısını hələ də unutmadığını deyib.

Bu hadisələrə ilk reaksiyanın Ümummilli Lider Heydər Əliyevdən gəldiyini diqqətə çatdıran E.Babayev H.Əliyevin faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdiyini söyləyib. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü ildə faciəyə siyasi-hüquqi qiymət verildiyini onlayn tədbir iştirakçılarının diqqətinə çatdırıb. 20 Yanvar şəhidlərinin ailələrinin və 20 Yanvar əlillərinin sosial müdafiəsi işlərinə başlanması da Ümummilli liderin adı ilə bağlı olduğunu qeyd edib. Bakı Dövlət Universitetinin 2 saylı tədris binasının qarşısında 20 Yanvar Şəhidlərinin xatirəsinə ucaldılmış abidə bu faciə qurbanlarının xatirəsinə ehtiramın növbəti nümunəsidir.

Dəyirmi masanın moderatoru, elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsinin xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixi olduğunu qeyd edib. Azərbaycan xalqı tarixinin qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 31 il ötdüyünü nəzərə çatdıraraq sözü məruzəçilərə verib.

Daha sonra şəhid, Milli Qəhrəman Məzahir Rüstəmovun atası, BDU-nun Sosiologiya kafedrasının professoru İzzət Rüstəmov məruzə ilə çıxış edib. Məruzədə 31 il öncə baş verən hadisələr bir daha nəzərdən keçirilib, 20 Yanvar faciəsinin baş vermə səbəbləri, həmin dövrdə dünyada və ölkə daxilindəki ictimai-siyasi vəziyyət təhlil olunub, xalqımızın azadlıq mübarizəsində 20 Yanvar faciəsinin oynadığı roldan, BDU tələbələrinin bu dövrdəki xidmətlərindən ətraflı bəhs edilib.



Dəyirmi masa Milli Məclisin üzvü, BDU-nun professoru Jalə Əliyeva, Milli Məclisin üzvü, BDU-nun kafedra müdiri Anar İsgəndərov, “20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin olunması” İctimai Birliyinin sədr müavini, BDU-nun elmi işçisi Almara Nəbiyeva, Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO kafedrasının müəllimi Əlövsət Allahverdiyev, Tarix fakültəsinin magistrantı Nigar Abdullazadənin Ümumxalq Hüzn Günü ilə bağlı çıxışları ilə davam edib.

***Çıxışlarda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən qanlı hadisələr yada salınıb, sovet ordusunun paytaxtda, eyni zamanda bölgələrdə həyata keçirdiyi qətliamdan, günahsız insanların həyatlarını itirməsindən danışılıb, bu faciənin beynəlxalq hüquqi aspektləri təhlil olunub, şəhidlərimizin müasir tariximizin qəhrəmanlarına çevrilməsindən söz açılıb, şəhid ailələrinə, əlillərə dövlətin diqqət və qayğısından bəhs edilib.***

Sonda 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusu tərəfindən 20 Yanvar şəhidlərinin də qisasının alındığı, vətən uğrunda canlarından keçmiş oğullarımızın Azərbaycan xalqının qəlbində əbədi yaşayacağı qeyd olunub.

# "XXI əsrin universitet modeli" mövzusunda onlayn müzakirə

***Yanvarın 21-də Təhsil Nazirliyi yanında İctimai Şura və “Azedu Academy”-nin birgə təşəbbüsü ilə “XXI əsrin universitet modeli” mövzusunda onlayn formatda müzakirə keçirilir.***

Təhsil naziri Emin Əmrullayevin iştirakı ilə keçirilən müzakirəyə nazirlik yanında İctimai şuranın üzvləri, eləcə də qurumun bir sıra əməkdaşları qatılıblar.

Müzakirələrdə təhsil nazirinin müşaviri Elnur Nəsibov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova, ADA Universiteti, Milli Aviasiya Akademiyasının nümayəndəsi, Sumqayıt Dövlət Universitetinin rektoru Elxan Hüseynov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Lənkəran Dövlət Universitetinin rektor əvəzi Natiq İbrahimov, Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusubov, Azərbaycan Texnologiya Universitetinin rektoru Akif Süleymanov, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının nümayəndəsi, Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Gömrük Akademiyasının rektoru Qulu Novruzov, Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov, Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı, "Odlar Yurdu" Universitetinin rektoru Əhməd Vəliyev, Azərbaycan Kooperasiya Universitetinin rektoru Eldar Quliyev, Bakı Qızlar Universitetinin rektoru Ağarəhim Rəhimov, İdman Akademiyasının rektoru Fuad Hacıyev də iştirak edir.

# BDU-nun yeni yataqxanasında tələbələr üçün bütün şərait yaradılıb

*Yanvarın 29-da Bakı Dövlət Universitetinin yeni tələbə yataqxanasının - "Tələbə evi"nin açılışı olub. Açılışda Azərbaycan Respublikasının təhsil naziri, BDU-nun Himayəçilər Şurasının sədri Emin Əmrullayev və BDU-nun rektoru Elçin Babayev iştirak edib. Təhsil naziri yataqxanada tələbələr üçün yaradılan şəraitlə tanış olub.*

## Bakı Dövlət Universitetinin yeni tələbə yataqxanasının - "Tələbə evi"nin açılışı olub







Tələbələrin istifadəsinə hazır vəziyyətə gətirilən 5 mərtəbəli, 220 yerlik "Tələbə evi" həm əcnəbi, həm də yerli tələbələr üçün nəzərdə tutulub. Yataqxanada 104 standart tələbə otağı və 2 qonaq otağı mövcuddur. "Tələbə evi"ndə müasir standartlara cavab verən şərait yaradılıb, otaqlar zəruri mebel, məişət avadanlıqları, istilik sistemi ilə təmin olunub. Burada zəruri ədəbiyyat və əyani vəsaitlərlə təchiz edilmiş kitabxana - oxu zalı, iclas otağı, asudə vaxt otağı, mətbəx, camaşırxana, bütün zəruri avadanlıqlarla təchiz edilmiş yeməkxana fəaliyyət göstərəcəkdir. Yataqxananın həyətində idman avadanlıqları quraşdırılıb, istirahət guşəsi yaradılıb, ağac və kollar əkilb. Eyni zamanda yataqxanada ilkin tibbi yardım məntəqəsi də təşkil edilib və tibb məntəqəsi zəruri avadanlıq və dərmanlarla təmin olunub. Yataqxana ərazisində təhlükəsizliyə kameralarla müntəzəm nəzarət ediləcəkdir.

Hər mərtəbədə 24 ikinəfərlik və 2 üçnəfərlik otaq nəzərdə tutulmuşdur. Otaqlar hər bir tələbə üçün fərdi, xüsusi dizayna və rəngə malik stol, stul, müasir yataq mebeli və qarderobla təmin olunmuşdur. Hər mərtəbədə iki mətbəx və iki məişət otağı mövcuddur. Mətbəxdə tələbələrin rahatlığının təmin olunması üçün soyuducular və digər zəruri avadanlıqlar yerləşdirilib. Mərkəzi istilik sistemi ilə təchiz edilmiş yataqxananın bütün mərtəbələrində və otaqlarda yanğın əleyhinə avadanlıqlar quraşdırılıb, eyni zamanda "Tələbə evi" yüksək sürətli internet şəbəkəsi ilə təchiz olunub.

# BDU-da "İşğal edilmiş ərazilərdə məcburi köçkünlərin pozulmuş hüquqlarına dair kompleks hesabat" hazırlayan işçi qrupun növbəti iclası keçirilib

*Yanvarın 9-da Bakı Dövlət Universitetində "İşğal edilmiş Azərbaycan Respublikası ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqlarına dair Kompleks Hesabat"ın hazırlanması layihəsi çərçivəsində işçi qrupun növbəti onlayn iclası keçirilib.*

İclası giriş sözü ilə açan layihənin rəhbəri, BDU-nun rektoru Elçin Babayev Vətən müharibəsində qazanılan Böyük Qələbə, müharibə dövründə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə başlanan quruculuq, bərpa işlərindən danışıb. Rektor layihənin əhəmiyyətinə diqqət çəkərək hesabat dövründə aparılan işlərdə mühüm məqamları diqqətə çatdırıb.

Görülmüş işlər haqqında məlumat verən BDU-nun Hüquq fakültəsinin dekanı Əmir Əliyev pozulmuş hüquqlara dair hesabatların hazırlanması işinin uğurla davam etdiyini diqqətə çatdırıb. İşçi qrupun rəhbərləri Məhəmməd Quluzadə və Turqay Hüseynov Azərbaycan Respublikası ərazilərinin işğal edilməsi nəticəsində həmin ərazilərdən məcburi köçkün düşmüş şəxslərin pozulmuş hüquqlarının, daha sonra dəymiş ziyanın əhatə dairəsinin və istiqamətlərinin müəyyən edilməsi, beynəlxalq təcrübəni öyrənməklə pozulmuş hüquqların bərpası, məcburi köçkünlərə dəymiş ziyanın Ermənistan tərəfindən ödənilməsi üçün beynəlxalq-hüquqi mexanizmlərin öyrənilməsinə dair hesabatın vacibliyini diqqətə çatdırıblar.

Azərbaycan Respublikasının Milli Məclisinin üzvləri Hicran Hüseynova və Bəhruz Məhərrəmov hesabatın əhəmiyyətinə diqqət çəkərək, onun Vətən Müharibəsi başladıqdan sonra və müharibə dövründə ilk sənədli yanaşma olduğunu, eyni zamanda beynəlxalq təcrübəyə əsaslandığını qeyd ediblər. İclas hesabat dövründə görülən işlərin müzakirəsi ilə başa çatlb.

Qeyd edək ki, BDU-da hazırda iki akademik layihə həyata keçirilir. "İşğal altında olmuş Azərbaycan Respublikası ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqlarına dair Kompleks Hesabat"ın hazırlanma layihəsinin məqsədi məcburi köçkünlərimizn işğala qədər, işğal dövründə və işğaldan sonra öz doğma yurdlarına təhlükəsiz və şərəflə qayıtmaq hüquqları ilə əhatələnən və mühüm beynəlxalq sənədlərlə tanınaraq pozulmuş əsas hüquqları, işğalla əlaqədar vurulmuş ziyanların əhatə dairəsi, işğal dövründə törədilən beynəlxalq cinayətlər, Ermənistanın beynəlxalq-hüquqi məsuliyyətinin əsasları, işğal altında olmuş Azərbaycan Respublikası əraziləri üçün zərurət duyulan humanitar yardım və s. məsələlərin, "Vətən müharibəsi dövründə ölkə və xarici medianın fəaliyyətinin təhlili" layihəsinin məqsədi 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikası Prezidentinin xarici KİV-ə müsahibələrinin, bu müsahibələrin Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında, informasiya müharibəsində oynadığı əvəzsiz rolunun, müharibə dövründə yerli və xarici mediada dərc olunan məqalələrin, müsahibələrin və s. təhlillərini apararaq analitik hesabatların hazırlanması, beynəlxalq medianın baxışının və yerli medianın fəaliyyətinin akademik səviyyədə qiymətləndirilməsidir.

# Professor Cahangir Məmmədli ilə görüş

*Yanvar 25-də Jurnalistika fakültəsinin ustad müəllimi, yeni media ve kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri professor Cahangir Məmmədli ilə birinci kurs tələbələrinin onlayn görüşü keçirilib.*

Tədbiri giriş sözü ilə açan fakültənin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev tələbə-jurnalistlərlə qocaman müəllimlər arasında belə görüşlərin keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Tədbirin Cahangir Məmmədlinin doğum gününə təsadüf etməsindən dolayı müəllimi təbrik edən natiq ona can sağlığı və işlərində müvəffəqiyyət arzu edib. Söz alan fakültə dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Əliyev də öz növbəsində Cahangir müəllimi təbrik edərək onun elmi-pedaqoji fəaliyyətindən, jurnalistikanın inkişafındakı xidmətlərindən söhbət açıb.

Sonra söz C.Məmmədliyə verilib. Cahangir müəllim jurnalistikaya olan sevgisindən, fakültəyə gəlişindən, tələbəlik illərindən, fakültədəki müsbət atmosferdən danışıb. O, fakültədə istər tələbə, istərsə də müəllim işləyərkən böyük ustad Şirməmməd Hüseynovun ona daim hamilik etməsindən şükranlıqla danışıb. Professor C.Məmmədli junalistikanın çətin və məsuliyyətli sənət olduğunu qeyd edərək, əsl jurnalist adını almaq üçün çox böyük səylə çalışmaq, daim mütiaə etmək və bu peşəni sevərək işləməyin əsas şərtlərdən biri olduğunu tələbələrin diqqətinə çatdırıb. Cahangir müəllim jurnalistikanın sirləri ilə bağlı tələbə-jurnalistlərə dəyərli məsləhətlərini verib, onlara özünü bu ixtisas üzrə yetişdirməyin əsas şərtlərini izah edib.

Daha sonra C.Məmmədli tələbələrin çoxsaylı və maraqlı suallarını cavablandırıb.

# 26 yanvar - Dünya Ekoloji Təhsil Günüdür



*Müasir ekoloji təhsil hərəkatı 1972-ci ilin iyununda İsveçin paytaxtı Stokholmda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının "İnsanın ətraf mühiti" adlanan konfransında beynəlxalq status alıb.* Konfransın 21-ci plenar iclasında Stokholm sazişi qəbul edilib. Sazişdə ətraf mühitə və davamlı inkişafa dair 26 prinsip yer alıb. Prinsiplərdən biri "Ətraf mühit üzrə təhsil vacibdir" adlanır. Bu günlə bağlı dünyanın bir çox ölkəsində ali təhsil müəssisələrində ekoloji təhsilin vacibliyi, ekoloji şüurun formalaşması və dövlətlərarası təcrübə mübadiləsinin əhəmiyyətinə diqqət cəlb edilir, ekoloji məsələlərə həsr edilmiş konfranslar və seminarlar keçirilir, "dəyirmi masalar" təşkil olunur.

Dünya Ekoloji Təhsil Gününün qeyd edilməsində əsas məqsəd ətraf mühit problemlərinə, onların həllinə ictimai diqqəti yönəltmək və gələcəkdə baş verə biləcək fəsadların qarşısını almaqda ekoloji təhsilin və ekoloji maarifləndirmənin vacibliyini vurğulamaqdır.

Ölkəmizdə də "Dünya Ekoloji Təhsil Günü" ilə əlaqədar maarifləndirici vebinarlar keçirilir, xüsusilə məktəblilərin ekoloji dünyagörüşünün formalaşdırılmasına yönələn tədbirlər təşkil olunur. Azərbaycanda da ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinun salınmasına, mövcud yaşıllıq ərazilərin genişləndirilməsinə və qorunmasına, bu sahədə peşəkar kadrlar yetişdirilməsinə xüsusi diqqət göstərilir.

Azərbaycanda aparılan təhsil islahatları, təhsil prosesinə yaradıcı münasibət, yeni texnologiyaların tətbiqi, təhsilin dünya standartları səviyyəsində qurulmasında mühüm rol oynayır. Bu, islahatlar çərçivəsində ekoloji təhsilin inkişafı və ekoloji dünyagörüşün formalaşması üçün geniş perspektivlər yaranmışdır. Bakı Dövlət Universitetində də ekoloji təhsil aparılır, universitetin Ekologiya və torpaqşünaslıq fakültəsində ekologiya üzrə yüksəkixtisaslı kadrların yetişdirilməsinə xüsusi diqqət göstərilir.

# Professor koronavirusa qarşı peyvəndin hazırlanmasından danışıb

***Bakı Dövlət Universitetində məşhur alim, V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, professor Adil Allahverdiyevin təqdimatında "Koronavirusa qarşı peyvəndin hazırlanmasında müasir yanaşmalar" mövzusunda onlayn ustad dərsi keçirilib.***

İştirakçıları salamlayan Elmi Fəaliyyətin Təşkili və İnnovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov görüşün məqsədi barədə məlumat verib. Alimin araşdırmalarının dünya tibb elminə verdiyi töhfələrdən söz açaraq professorun elmi tədqiqatlarının əhəmiyyətindən danışıb. Tədqiqatında ilk dəfə olaraq malyariya parazitlərinin eritrositar mərhələsinin daxilində "rest state" dinclik vəziyyəti aşkar edildiyini, bunun epidemiologiya və kimyəvi terapiyada mühüm rola mailk olduğunu nəzərə çatdırıb. M.Süleymanov qeyd edib ki,



A.Allahverdiyev müxtəlif beynəlxalq jurnallarda dərc edilən 180-dən çox elmi məqalənin, bir neçə ixtiranın, səmərəli təkliflərin, Amerika və Avropada nəşr edilən kitabların müəllifidir.

**Videobağlantıya qoşulan BDU-nun rektoru Elçin Babayev professor Adil Allahverdiyvə maraqlı ustad dərsi üçün təşəkkür edib, gələcəkdə BDU ilə birgə yeni layihələrə imza atacaqlarına əminliyini ifadə edib.**

Vəli Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Adil Allahverdiyev 44 gün davam edən Vətən Müharəbəsində əldə olunan qələbə və əzəli torpaqlarımızın işğaldan azad olunması münasibətilə iştirakçıları təbrik edərək ölkəmizin haqq savaşının Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq mərhələ kimi qiymətləndirib.

Professor Azərbaycanda yeni növ koronavirusla mübarizənin inkişaf etmiş dövlətlərlə müqayisədə daha yaxşı təşkil olunduğunu vurğulayaraq "Koronavirusa qarşı peyvəndin hazırlanmasında müasir yanaşmalar" mövzusunda onlayn ustad dərsi verib. Alim COVID-19 infeksiyasının molekulyar diaqnostikası və müalicə üsulları, virusun genomu, quruluşu, mənşəyi, xəstəlik əlamətləri, koronavirusların replikasiyası və molekulyar divergensiyası, eyni zamanda vaksinlərin hazırlanması, DNT vaksinlərinin effektivliyi, koronavirusların MERS və SARS növləri barəsində təqdimatla çıxış edərək bir çox məsələlərə aydınlıq gətirib.

Videobağlantıya qoşulan BDU-nun rektoru Elçin Babayev professor Adil Allahverdiyevə maraqlı ustad dərsi üçün təşəkkür edib, gələcəkdə BDU ilə birgə yeni layihələrə imza atacaqlarına əminliyini ifadə edib.

*Adil Allahverdiyev də öz növbəsində BDU-nun professor-müəllim heyəti və tələbələri qarşısında çıxış etməkdən məmnun olduğunu qeyd edib.*

# BDU-nun professorundan aktual təklif: azad olunmuş ərazilərimizin bərpasında hər bir alim öz bilik və bacarığını ortaya qoymalıdır

***Azərbaycanın ermәni işğalından azad olunmuş ərazilərinin vəziyyəti onu göstərir ki, burada böyük miqyaslı bərpa və quruculuq işləri aparılmalıdır. İşğalın nəticələri, demək olar ki, dünyada analoqu olmayan bir mənzərəni üzə çıxartdı.***

Yaxın keçmişin tarixi faktları onu göstərirdi ki, ərazilərin işğalı nəticəsində buradakı təbii sərvətlər mənimsənilirdi və eyni zamanda qanunsuz məskunlaşma siyasəti yeridilirdi. Ancaq ermənilər burada bütün dəyərləri talan etmiş və yaşayış məkanlarını məqsədli dağıdaraq bu əraziləri xarabalığa çevirmişlər. Bu da ermənilərin nə dərəcədə vəhşi və xalğımıza nifrət hissləriylə yaşadıqlarını bir daha təsdiq edir. Nəticədə, biz daşı-daş üstündə qalmayan, tamamilə dağıdılmış ərazilərimizə qayıdaraq, tarixi torpaqlarımıza sahib çıxmalı, burada yeni quruculuq işləri üzrə layihələrin icrasını həyata keçirməliyik.



İşğaldan azad olunmuş ərazilərin bərpası üçün buradakı vəziyyətin kompleks qiymətləndirilməsi, infrastruktur şəbəkəsinin yaradılması - enerji, su, qaz təchizatı, yolların və yaşayış binaların inşası işləri tədricən həyata keçirilməlidir. Paralel olaraq, hər bir inzibati rayonda çevik hərbi mərkəzlər və sərhəd qoşunları məntəqələrinin yerləşdirilməsi planlaşdırılmalıdır. Bütün bu işlərin uğurlu icrası və səmərəli təşkili üçün elmi araşdırmaların aparılması və onun nəticələrindən istifadə edilməsi zəruridir. Bu baxımdan yaxşı olardı, iki sualın açıqlanmasına aydınlıq gətirilsin: birinci, alimlərimizin elmi araşdırmalarının nəticələri nə dərəcədə tətbiqi əhəmiyyət daşıyır, ikinci, bərpa işləri ilə məşğul olan qurumlar elmi araşdırmaların nəticələrindən nə dərəcədə istifadə etməkdə maraqlıdırlar?!

AMEA-nın tədqiqat institutları və universitetlərdə çalışan çoxsaylı alimlər və mütəxəssislər müxtəlif istiqamətlərdə elmi araşdırmalarla məşğuldur. Elmi araşdırmaların sahələri fundamental elmlərlə yanaşı tətbiqi xarakterli sahələri də əhatə edir. Yeri gəlmişkən qeyd edək ki, fundamental elm sahəsində ciddi işlərin aparılması çox böyük sərmayə qoyuluşları və güclü elmi məktəblərin olmasını tələb edir. Əks halda bu sahədə uğurlu nəticələr gözləmək olmaz. Buna görə, hesab edirəm ki, müasir dövrdə respublikamızda diqqət xüsusi olaraq tətbiqi əhəmiyyət daşıyan sahələrin inkişafına verilməlidir. İndiki vəziyyətdə, məhz tətbiqi mahiyyət daşıyan elmi araşdırmaların nəticələri işğaldan azad edilmiş ərazilərdə istifadə edilməlidir. Burada coğrafiya, geologiya, iqtisadiyyat, hidrologiya, geodeziya, tikinti, turizm, şəhərsalma, ərazi planlaşdırılması və digər sahələrdə çalışan alimlərin elmi araşdırmalarından, bilik və bacarıqlarında istifadə edilməsi vacib əhəmiyyət kəsb edir. Artıq, işğaldan azad olunmuş ərazilərdə infrastruktur xətləri çəkilir, quruculuq işləri aparılır və bu dəyişikliklər ölkəmizin hər bir vətəndaşını sevindirir. Bu işlərin icrası təbii ki, əsasən mühəndis-texniki işçilərin boynuna düşür, lakin quruculuq işlərinin səmərəli təşkili və uzunmüddətli uğurlu olması üçün belə tədbirlər elmi əsaslarla aparılmalıdır. Əks halda, qısa müddətdən sonra infrastruktur şəbəkəsinin və yaxud digər tikinti obyektlərin təmiri və yenidən tikilməsinə tələbat yaranacaq və əlavə vəsaitlərin ayrılması qaçılmaz olacaqdır. Yarana biləcək belə vəziyyətin qarşısının alınması üçün hesab edirəm ki, müvafiq dövlət qurumu nəzdində (ola bilər Operativ Qərargahda) ictimai əsaslarla müvəqqəti elmi konsultativ mərkəzin yaradılması məqsədə uyğun ola bilər. Bu mərkəz alimlərin təkliflərini və icra ediləcək layihələrin elmi ekspertizasını aparılması ilə məşğul olmalı və icra qurumlarına müvafuq tövsiyyələr hazırlamalıdır. Nəzərə almaq lazımdır ku, elmin hər bir sahəsi üzrə respublikamızda çox sayda akademiklər və elmlər doktorları vardır və bəllidir ki, elm sahəsi büdcədən maliyyələşdirilir. Bazar iqtisadiyyatı şəraitində, innovativ elmi araşdırmalar artıq çoxdandır özünün maliyyə təminatı məsələsini təmin etmişdir. Bəs nə səbəbə hələ də bizim elmi qurumlarımız buna nail ola bilmişlər? Bu, təbii ki, bu günkü mövzudan kənara çıxan ayrı müzakirə mövzusudur. Lakin, azad olunmuş ərazilərin bərpası üçün məhz indi konstruktiv, iqtisadi əhəmiyyət daşıyan, iqtisadi və texnoloji üstünlükləri ilə fərqlənən, elmi təkliflərə və təşəbbüslərə ciddi ehtiyac vardır.

Alimin bilik və bacarıqlarının əhəmiyyəti və ölkəyə verdiyi bəhrəsi ilk öncə onun əməyinin faydalı nəticələridir. Əgər alimlərimizin elmi səviyyəsi yalnız çap etdirdikləri monoqrafiyalar, xarici ölkələrdə yüksək reytinqli jurnallarda məqalələrin nəşr edilməsi və beynəlxalq konfranslarda cıxlışları ilə qiymətləndiriləcək, elmi araşdırmaları respublikamıza real fayda vermirsə, onda elm aləmində geniş yayılmış ifadə - "elmin elm namimə inkişafi" özünü daha qabarıq və daha aktual olaraq indiki vəziyyətdə təsdiqlənəcəkdir.

Sonda, fikrimcə, hər bir alim və mütəxəssis, çalışdığı sahəsindən asılı olmayaraq, işğaldan azad olunmuş ərazilərimizin bərpası üçün bilik və baçarıqlarını oratya çıxararaq, maraqlı və elmi əsaslandırılmış təkliflərlə çıxış etməli və ölkəmizin davamlı inkişafına öz əməyini qoymalıdır.

***Çingiz İsmayılov,***
***İqtisadi və sosial coğrafiya kafedrasının müdiri, professor***

***"Xalq qəzeti", 9 yanvar 2021-ci il***

# BDU-nun müəllimi beynəlxalq konqresdə çıxış edib




***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Politologiya və sosiologiya kafedrasının baş müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru Ülkər İmaməliyeva beynəlxalq konqresdə iştirak edib. Konqres Nyu-Yorkun Regional İnkişafın Araşdırılması İnstitutunun təşəbbüsü ilə baş tutub.***

2021-ci il 8-10 yanvar tarixində Türkiyənin İstanbul şəhərində 12 dövlət nümayəndələrinin təmsil olunduğu III İstanbul Beynəlxalq Araşdırma Konqresi təhsil nəzəriyyəsi və praktikasında tədqiqat yeniliklərinin təqdimatı üçün təşkil olunmuş ilk forumdur.

Forumda BDU-nun müəllimi Ülkər İmaməliyeva "İdarəetmənin təkmilləşdirilməsində elektron hökumətin rolu" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi informasiya və kommunikasiya texnologiyalarında müşahidə olunan sürətli dəyişkənlik və inkişaf etmiş ölkələrin idarəetmə anlayışlarına, iqtisadi, sosial və mədəni həyata öz təsirindən bəhs edib, bu hərtərəfli dəyişmə ilə paralel, müasir idarəetmə anlayışları çərçivəsində informasiyanın əhəmiyyətinin də artdığını diqqətə çatdırıb. Xüsusən yeni əsrin ən mühüm şüarlarından biri kimi "bilik gücdür" şüarının hamı tərəfindən qəbul edildiyini xatırladan Ü.İmaməliyeva, elektron hökumət proqramları və informasiya texnologiyalarının əhəmiyyətini xüsusi vurğulayıb.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

Qeyd edək ki, məruzənin tam mətni "Regional inkişaf üzrə beynəlxalq araşdırmalar" kitabında (İSBN, Nyu-York) dərc edilib.



# Xarı bülbülün yarı ŞUŞA

***Hər bir canlını: su, od, hava və torpaq kimi nemətlər yaşadır. Müəyyən vaxt susuz, odsuz da keçinmək olar, ancaq havasız, torpaqsız əsla! Atalarımız: "Torpağa bax deyiblər!" - ancaq dərin təəsüf və acı həqiqət ondan ibarətdir ki, üç on ilə yaxın bir zamanda sözün hər iki mənasında əzəli Vətən torpaqlarımızın müəyyən bir hissəsinin "qayğısına qala" bilmədik. Biz azərbaycanlılar torpağı çörək bilmiş, hər iki neməti uca tutmuşuq. Pənahımıza sığınan hər kəslə çörəyimizi tən bölmüşük. "Axırıncı aşırım" filmindəki bir ifadədə deyildiyi kimi: "Yeyin bəy, düşmən də olsaq, çörəyimiz halaldır". Sözsüz ki, bu ifadə xalqımızın ədalətli, humanist və ürəyiaçıqlığından xəbər verir. Ancaq heç vaxt heç bir xalqa düşmən gözü ilə baxmamışıq, onun taleyinə qənim kəsilməmişik.***

"Dərisi ağ qulların ən pisi ermənilərdir. Abır-həyaları yoxdur, oğurluqları olduqca məşhurdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər" - deyərək İsveç şərqşünası Adam Mets ürəyi xıltlı, riyakar erməniləri çox dolğun şəkildə xarakterizə edir.

Çörək haqqına xilaf çıxan, çörəyi dizi üstündə olan ermənilər həm də otuz ilə yaxın bir vaxtda dədə-baba torpaqlarımızı işğal etdi. Ancaq yer üzünün əhriməni - şər qüvvəsi olan ermənilər Adam Metsin çəkdiyi misaldakı kimi başlarının üstündə mütləq dəyənək görməli, qorxu yaşamalı idi. Odur ki, Azərbaycan dövlətinin və xalqının dəmir yumruğunun gücü ermənilərin onurğa sütununu və başını əzdikdən sonra illərlə zəbt etdikləri torpaqlarımızdan sözün həqiqi və fiziki mənasında yox oldular.

Keçən ilin 27 sentyabrından başlayan Vətən savaşımız noyabr ayının 10-da düşmən tərəfin biyabırcasına kapitulyasiya aktını imzalaması ilə başa çatdı. Bu parlaq qələbə, bu möhtəşəm zəfər Azərbaycan dövlətinin, ordusunun, xalqının 44 günün içində bütün dünyaya gücünü göstərdi. Ali Baş Komandanımızın qətiyyəti, rəşadətli və müzəffər ordumuzun qüdrəti ilə Qarabağ düşmən tapdağından azad olundu. Bu azadlığın Şuşa zəfəri isə xalqın qan, can və hər an yaddaşında yaşayacaq. Şuşa qalibiyyəti xalqın Şuşa əzəmətini, şüşə təmizliyini özünə qaytardı. İgid ərənlərimizin - əsgərlərimizin qan qırmızısına boyanan Şuşamız öz müqəddəsliyinə bir də Kəbə, Məkkə müqəddəsliyini əlavə etdi. Artıq Şuşa duyğusuz boz, ruhsuz qara rəngi ilə deyil, xarı bülbülün aləlvan möcüzəli rəngləri ilə boyanıb.

Xarı bülbül yaralı əsgərin ümid yeri, şəhid qardaşlarımızın xatirə rəmzi olmaqla yanaşı, həm də bütün xalqın qələbə simvoluna çevrildi. Bu ilin yanvar ayının 5-də Prezident İlham Əliyevin göstərişi ilə Şuşa şəhəri "Azərbaycan mədəniyyətinin paytaxtı" elan edildi.

Bu məqamda millətimiz üçün günün, ayın və ilin ən müqəddəsi hesab edilən 8 noyabr 2020-ci il Ali Baş Komandanımızın Şuşanın düşmən tapdağından azad olduğu gündə Şəhidlər xiyabanını və Fəxri xiyabanı ziyarət edərkən, xalqa müraciətindəki bu sözləri xatırlayaq: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Həqiqətən də iyirmi səkkiz il yarım işğal altında olan qeyrət və mədəniyyət qalamız - Şuşa qalamız öz doğma insanlarına qovuşdu. İndi "Qafqazın İtaliyası", "Kiçik Paris" yenə əvvəlki dəyərlərinə qayıdacaq, mədəni yüksəlişinə çatacaq. Bu il Şuşa şəhərində "Vaqif poeziya günləri" və "Xarı bülbül" festivalının keçirilməsini qarşıya məqsəd qoyan Cənab Prezident İlham Əliyev şəhərin milli-mənəvi, milli-mədəni dəyərlərinin tezliklə dirçəlməsinə, qol-budaq atmasına tez bir zamanda şərait yaratmış oldu.

Azərbaycanda ilk dəfə 1901-ci ildə Şuşada "Şərq konserti" təşkil edən Əbdürrəhim bəy Haqverdiyevin ruhu ilə bərabər, həm də Süleyman Sani Axundov, Qasım bəy Zakir, Xurşid banu Natəvan, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminlinin də ruhları şaddır. "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziyanın konservatoriyası" sayılan Şuşanın incəsənət nəhəngləri Üzeyir Hacıbəyliin, Zülfüqar Hacıbəyovun, Ağalar Əliverdibəyovun, Məşədi Cəmil Əmirovun, Soltan Hacıbəyovun, Süleyman Ələsgərovun, Cabbar Qaryağdıoğlunun, Bülbülün, Xan Şuşinskinin, Rəşid Behbudovun da heç şübhəsiz ki, ruhları şaddır.

Şuşa hər bir vətəndaşımızın arzusu, xəyalı idi. Bu gün arzu - reallığa, xəyal - gerçəkliyə dönüb. Bu gün ərazi bütövlüyümüz bərpa olunub. Torpaqla bərabər, vətəndaş da tamlığına qovuşub. 2021 -ci il Vətənin daşı, torpağı olan kiçikdən-böyüyə hər bir vətəndaş xoşbəxtdir, şad-xürrəmdir.

Bu gün nəyinki Şuşa və azərbaycanlılar - şuşalılar şaddır, bu gün həm də bu şəhərin dağı-daşı, gölü-çayı, ağacı-meşəsi şaddır. Bir də torpağı və o müqəddəs torpaqda boy atıb xalqla birlikdə böyüyən Xarı bülbülü!

***Əsgər İsmayılov,***
***Jurnalistika fakültəsinin tələbəsi***

# BDU ilə TİKA arasında yeni layihələr müzakirə olunub

***Bakı Dövlət Universiteti ilə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasında Zoom platforması vasitəsilə onlayn görüş keçirilib.***

Görüşdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, şöbənin baş mütəxəssisi Şəms Bağırova, TİKA-nın Bakı Proqram Koordinasiya Ofisinin rəhbəri Teoman Tiryaki iştirak ediblər.

Onlayn görüşdə iki qardaş ölkə arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu diqqətə çatdırılıb, Türkiyə universitetləri ilə BDU arasında qarşılıqlı və faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində yeni layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb. Daha sonra layihə təklifləri müzakirə olunub.

Onlayn görüşdə prorektor Ş.Pənahov Orta Asiya, Azərbaycan və Türkiyə universitetlərinin birgə kitabxanaları üçün layihə hazırlanmasını təklif edib. O, dünya təcrübəsinin əsasında türkdilli ölkələrin kitabxanalarını, resurslarını və alimlərini birləşdirən bir şəbəkənin yaradılmasına ehtiyac olduğunu bildirib.

R.Həsənov universitetin beynəlxalq əlaqələrinin inkişafını, eyni zamanda Türkiyə Universitetləri ilə uğurlu əlaqələr qurulduğunu və bu istiqamətdə münasibətlərin yüksələn xətlə davam etdirildiyini nəzərə çatdırıb. Həmçinin türkdilli ölkələrin universitetləri arasında ikili diplom, birgə elmi araşdırmaların aparılması və müəllim-tələbə mübadiləsinə dair layihələrin hazırlanması məsələsinə toxunub.

Onlayn görüş BDU və Türkiyə ali məktəbləri arasında əməkdaşlıq perspektivlərinin müzakirəsi ilə başa çatıb.

# İmtahanların ilk günü

## Bakı Dövlət Universitetində payız semestrinin onlayn imtahan sessiyası başlayıb

***Yanvarın 11-də bakalavriat pilləsində təhsil alan 331 qrup üzrə 6692 tələbə (130 nəfəri SABAH qrupları olmaqla) imtahanlarda iştirak edib.***

Magistratura pilləsində isə 148 ixtisaslaşmada 629 magistrant imtahan verib. BDU-nun Qazax filialında isə 345 tələbə imtahanlarda iştirak edib.

İmtahanların gedişini prorektorlar, dekanlar, kafedra müdirləri və Tələbə Nəzarət Qrupunun üzvləri də izləyiblər.

Tələbələr imtahanları müvəffəqiyyətlə veriblər.



İmtahanların şəffaf və mövcud qaydalara uyğun təşkil olunması məqsədilə bütün texniki tədbirlər yüksək səviyyədə həyata keçirilib.

# Mükəmməl təcrübənin davamı

***Bakı Dövlət Universitetində payız semestrinin imtahan sessiyası başlayıb. Təhsil nazirinin 2020-ci il dekabrın 11-də "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" imzaladığı əmrə əsasən 2020-2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyası yanvar ayının 11-dən başlayaraq dörd həftə müddətində distant formada keçiriləcək.***

Hər zaman tələbəyönümlü qərarlarla çıxış edən BDU yenə də öz ənənəsinə sadiq qalaraq payız semestrinin imtahan sessiyasında tələbələrin öz bilik və bacarıqlarını nümayiş etdirməsi üçün bütün şəraitin yaradılmasını əsas məsələ kimi nəzərdə tutub. Milli təhsil konsepsiyası ənənələrinə, eyni zamanda nümunəvi beynəlxalq təhsil təcrübəsinə sadiq qalaraq BDU mövcud vəziyyəti dərindən təhlil edərək, operativliyi təmin etməklə qısa zaman kəsiyində çoxminli universitet kollektivinin vəhdətinə, birliyinə nail olub.

Bu gündən başlayaraq BDU Elmi Şurasının 2020-ci il 18 dekabr tarixli qərarına əsasən tələbələr üçün bir sıra güzəştlər tətbiq edilib, tələbə müraciətlərinin yerində çevik həll edilməsi təmin olunub. Qiymətləndirmə ilə razılaşmayan tələbələrin müraciətlərinə imtahan prosesinin sonunadək rektorun nümayəndəsi, fakültə dekanı, müvafiq kafedranın müdiri və fənn müəlliminin iştirakı ilə yenidən baxılması nəzərdə tutulub.

Bugünkü imtahanlardan uğurla çıxan bəzi tələbələrin xoşbəxtlik hisslərinə bürünməsi, onların imtahan uğurla verməsi qeyd etdiyimiz məqamların müsbət mənada təsdiqinin bariz nümunəsidir. Onların bugünkü imtahanla bağlı təəssüratlarını öz dillərindən eşidək:

***Kimya fakültəsinin I kurs tələbəsi Tural Ədilzadə:*** "Bu gün ali riyaziyyat-1 fənnindən imtahan verdim. İmtahan çox gözəl keçdi. Bakı Dövlət Universitetində imtahanlara hazırlıq prosesi uğurla baş tutub. "Microsoft Teams" platforması üzərindən təşkil edilən imtahanlara həm inzibati, həm akademik heyət tərəfindən nəzarət var. Eyni zamanda Tələbə Nəzarət Qrupunun üzvləri olan könüllü tələbə yoldaşlarımız da imtahanları müşahidə edir. İmtahan bütün tərtib edilən qaydalara uyğun şəkildə qarşıya qoyulmuş tələblər əsasında həyata keçirildi. İmtahandan müvəffəqiyyətlə çıxdım. Müəllimlərimə təşəkkür edir, bütün tələbələrə uğurlar arzu edirəm."

***Filologiya fakültəsinin I kurs tələbəsi Rəhiməxanım Əlipənahova:*** "Biz birinci kurslar olaraq bu gün ilk imtahanımızı verdik. Hazırlıqlı olduğumuza güvənsək də, ancaq imtahan həyacanının da olduğunu qeyd etməliyəm. Düşünürəm ki, bu da hər bir tələbə üçün təbii haldır. Buna baxmayaraq universitet rəhbərliyi, eləcə də, müəllim və koordinatorlar tərəfindən yaradılmış şərait imtahanı uğurla keçməyimizə zəmin yaratdı. Qaydalara uyğun olaraq biletlərimizi çəkdik və müəyyən müddət ərzində bizə düşünmək üçün vaxt verildi. Sualları cavablandırarkən də müəllimlər həyəcanımızı anlayışla qarşıladılar. Hər birimiz layiq olduğumuz balları aldıq və yaxşı nəticələr göstərdik. Semestr ərzində bizə əlindən gələn köməyi əsirgəməyən, ən yaxşı şəkildə dərsləri tədris edən müəllimlərimizə minnətdarıq. İmtahan sessiyasında bütün tələbələrə uğurlar arzu edirəm."

REKTORLARIMIZ...

# O, Güneyli, Quzeyli bütöv Azərbaycanın oğlu oldu

***Azərbaycanın məşhur geologiya-minerologiya elmləri doktoru, əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, BDU-nun rektoru olmuş professor Şəfayət Fərhad oğlu Mehdiyev həm də sözə ehtiramla yanaşan söz adamı idi. Sözlə ecazkar bir "dünya" yaradan istedadlı jurnalist, dramaturq, nasir, şair və ən əsası sözün qədrini bilən bir söz əhli idi.***



*Şəfayət Mehdiyev*

Taleh ona çox erkən acı çəkdirdi. 1910-cu ildə İranın Sərab Vilayətinin Şalqun kəndində anadan olan Şəfayət cəmi dörd il ata qayğısı gördü. Dörd yaşına yenicə keçmişdi ki, atası Fərhad kişini itirdi. Tale onu Bakıya gətirdi və Vətənin bu tayında onun üzünə güldü. Uşaqlığı və gəncliyi Bakının Sabunçu qəsəbəsində keçən Şəfayət burada birinci dərəcəli məktəbdə oxumaqla yanaşı həm də işləməli oldu. Gündüzləri nə qədər çətin keçsə də, gecələri oxumaqdan, öyrənməkdən yorulmadı, usanmadı, içindəki inam ona güc verdi... Cəfakeşliyi, fədakarlığı ilə əqidəsinə, amalına can atdı və qovuşdu.

Ş.Mehdiyev 1930-cu ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun geologiya-kəşfiyyat fakültəsinə daxil olur. Bu zaman dərsliklərin, dərs vəsaitlərinin demək olar çoxu rus dilində olduğu üçün tələbələrin əksəriyyəti məşğələlərə hazırlaşarkən çətinlik çəkirdilər. Bu Şəfayəti çox narahat edir. O, tez bir zamanda (2-ci kursda oxuyarkən) professor R.R.Suşinskinin "Kristalloqrafiyanın qısa kursu" kitabını Azərbaycan dilinə tərcümə edir. Həm bu hadisə, həm də dövrü mətbuatda çıxışı onu institutda hələ tələbəikən məşhurlaşdırır. İlk olaraq imzanı institutun "Neft kadrları uğrunda" çoxtirajlı qəzetində tanıdan gənc geoloq sonralar müntəzəm olaraq müxtəlif mövzularda dövrü mətbuatda çap olunur və bir müddət "Gənc işçi", "Gənc bolşevik" mətbu orqanlarına rəhbərlik də edir. Artıq Ş.Mehdiyev mətbu aləmdə tanındığı üçün "Xəbərlər Mətbuat Agentliyi" idarə heyətinə üzv seçilir və Azərbaycan şöbəsində sədrin müavini təyin edilir.

1941-ci ilin isti bir yay axşamı eşitdiyi xəbər - müharibənin başlaması çoxları kimi onu da sarsıtdı. Müharibəyə getdi. Qara dəniz qrupunda, Zaqafqaziya və IV Ukrayna cəbhəsində zabit kimi vuruşdu. 1944-cü ilin əvvəllərində mühəndis geoloq kimi arxa cəbhəyə göndərildi. 1945-ci ildə "Abşeron yarımadasının neft yataqlarının geotermikası" mövzusunda namizədlik, 1950-ci ildə isə "Lənkəran vilayətinin geoloji quruluşu və neftlilik perspektivləri" adlı doktorluq dissertasiyalarını müdafiə etdi. Artıq Şəfayət müəllim geologiya-mineralogiya elmləri üzrə tanınmış gənc mütəxəssis kimi diqqət mərkəzində idi. Onu həmin il Azərbaycan SSR EA Geologiya İnstitutunun direktoru təyin edirlər. Gərgin axtarışlar, elmi kəşflər Şəfayət müəllimi geologiya-mineralogiya elminin daha dərinliklərinə sövq edir və o istedadlı bir mütəxəssis kimi artıq dünyada tanınmağa başlayır. Ş.Mehdiyevin ABŞ, Meksika, Hindistan, Kanada, İsveçrə, Sudan, Avstraliya, Tanzaniya və s. xarici ölkələrdə keçirilən konfranslardakı çıxışları yüksək səviyyədə qarşılanır. 1955-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü, 1958-ci ildə isə akademiki seçilən Ş.Mehdiyevin elmi kəşflərinin səsi-sorağı daha möhtəşəm elm ocaqlarından eşidilir.

***1958-ci ilin aprel ayında Şəfayət Mehdiyev BDU-nun rektoru təyin edilir və o, 1965-ci ilin fevralına kimi bu vəzifədə çalışır.*** *Əksər tədqiqatçıların fikrincə, Böyük Vətən müharibəsindən sonra BDU-nun həyatında "xüsusi yüksəliş illəri 1950-1960-cı illərə təsadüf edir". 1958-ci ildə respublikada fizika elmi sahəsində baş verən əsaslı dəyişikliklər nəticəsində həmin il BDU-da müstəqil fizika fakültəsi yaradılır.* 1950-ci və xüsusilə, 1960-cı illərdə kimya elmlərinin öyrənilməsinə böyük diqqət yetirilirdi. Bu münasibətlə BDU-nun kimya fakültəsində xeyli iş görüldü. Əsasən də Sovet İKP MK-nın kimyalaşdırma məsələlərinə dair may (1958-ci il) və dekabr (1963-cü il) plenumlarının qərarları universitet qarşısında mühüm vəzifələr qoydu. Təbii, universitet rəhbərliyi də mərkəzin bu qərarlarını qəti şəkildə həyata keçirməli oldu. Fizika və kimya şöbələrindən ibarət olan iki axşam fakültəsi də məhz 1958-1959-cu dərs ilində açıldı. Doğrudur, qiyabi şöbə 1943-cü ildən yaranmışdı, amma əsasən 1950-1960-cı illərdə böyük rol oynadı. Bu illərdə universitetdə riyaziyyatçıların təliminin prinsipcə, yeni bir dövrü başladı və 1961-ci ilin oktyabrında universitet özünün hesablama mərkəzini yaratdı. Həmin illər ərzində universitetdə siyasi elmlərin tədrisində də dəyişikliklər edildi. 1960-cı ilin dekabrından yeni tədris planlarına "Etikanın əsasları" və "Marksist-leninçi etika" da əlavə edildi. 1962-1963-cü dərs ilində bir çox fənlər üzrə (xüsusən də etika, estetika, elmi ateizmin əsasları) tədris proqramlarına yenidən baxıldı. 1964-1965-ci illərdə ADU-da (əslində bütün ali məktəblərdə) "Elmi kommunizmin əsasları" kursu tam həcmdə tətbiq edilməsi nəzərdə tutuldu. Bu münasibətlə respublika Ali Təhsil Komitəsi 1964-cü il dekabrın 12-də əmr verdi ki, 1964-1965-ci dərs ilindən etibarən S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində (indiki BDU) "Elmi kommunizm" kafedrası təşkil edilsin və dayaq kafedrasının vəzifəsi bu kafedraya tapşırılsın. Kafedra fəaliyyətə 1966-1967-ci dərs ilindən başladı. Bu kafedranın yaranması yalnız universitetin tələbələrinin deyil, bütövlükdə ölkə gənclərinin ideya-siyasi tərbiyəsində makrsizm-leninizm nəzəriyyəsini gücləndirməyə yönəldilmişdi.

Yuxarıda qeyd etdik ki, Ş.Mehdiyev həm də dövrünün tanınmış yazarı idi. Onun "Mirzə Fətəli" pyesi, "Ərk qalası", "Vicdan yükü", "Sabir" hekayələri, onlarla publisist məqalələri, satirik yazıları, felyetonları, şeirləri və digər yazıları dövrünün bir çox problemlərinə həsr edilib. Müəllifin 1970-ci və 1990-cı illərdə "Su pərisi" və "Ədəbi əsərlər"i toplu şəklində çap edilərək oxucularının ixtiyarına verilib. Dövrünün problemlərini, uğurlarını əks etdirən bu əsərlər ədəbi və elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Görkəmli tədqiqatçı alim Əziz Mirəhmədov "Azərbaycan jurnalistləri və naşirləri" əsərində Ş.Mehdiyevi həm geoloq alim, həm də istedadlı yazar, ictimai xadim kimi təqdim edir. Ölkəmizdə və xaricdə nəşr edilmiş əllidən artıq elmi əsərin müəllifi olan Ş.Mehdiyevin əməyi yüksək qiymətləndirilib. "Əməkdar elm xadimi" adına layiq görülüb, "Qırmızı Əmək Bayrağı" ordeni və "Şərəf nişanı" ilə təltif edilib. Ömrünü geologiya elminin inkişafına həsr edən Ş.Mehdiyev uzun illər həm BDU-da "Ümumi geologiya", həm də ADNA-da "Neft və qaz yataqları geologiyası və kəşfiyyatı" kafedralarına rəhbərlik edib.

Görkəmli alim ömrünün 83-cü ilini qeyd etdiyi gün, 1993-cü il dekabrın 15-də haqq dünyasına qovuşub. Yadigar qalan isə adına layiq övladları, əsərləri və xeyirxah əməlləri oldu.

***Qərənfil Dünyaminqızı,***
***Milli mətbuat tarixi kafedrasının dosenti***

# Jurnalistika fakültəsi Medianın İnkişafı Agentliyi ilə əməkdaşlığa hazırdır

***Cənab Prezidentin 12 yanvar tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin yaradılması olduqca əhəmiyyətli bir hadisədir. İnanırıq ki, Medianın İnkişafı Agentliyi öz fəaliyyəti ilə mediamızın tərəqqisində əhəmiyyətli rol oynayacaq, onun maddi-texniki bazasının yaxşılaşdırılmasına böyük dəstək verəcək.*** Ümumiyyətlə, bu dəstək mediada müasir texnologiyaların və innovasiyaların tətbiqini stimullaşdırmaqla yanaşı, XXI əsrin çağırışlarına cavab verən peşəkar medianın formalaşmasına gətirib çıxaracaq, bir sözlə mediamızın nüfuzunu daha da artacaq. Medianın İnkişafı Agentliyinin yaradılması ölkəmizdə medianın inkişafına, qlobal informasiya məkanında baş verən trendlərin, dəyişikliklərin operativ şəkildə izlənməsinə, medianın fəaliyyətini daha çevik və məhsuldar şəkildə yenidən təşkil etməyə imkan verəcək. Fərmanda qeyd edildiyi kimi, burada söhbət yeni tendensiyaların öyrənilməsindən, medianın fəaliyyətini yeni tələblər əsasında qurmaqdan gedir. Medianın İnkişafı Agentliyinin yaradılması medianın inkişafı ilə bağlı strategiyanın hazırlanması, media ilə bağlı proseslərə çevik reaksiya verilməsi baxımından önəmlidir. Bu mənada yeni medianın hüquqi tənzimlənməsi mexanizmlərinin hazırlanması baxımından da Agentliyin üzərinə vəzifələr qoyulmuşdur.

Agentlik, eyni zamanda, onlayn mediada mövcud nizamsızlığı və mətbuat azadlığından sui-istifadə hallarının da aradan qaldırılmasında önəmli rol oyanacaq. Nəzərə almaq lazımdır ki, bu gün ölkə mediasında çalışanların heç də hamısı ixtisasca jurnalistlər deyil və bu sahəyə maraq çox olduğundan həvəskar axını da böyükdür. Bu isə bir çox hallarda xəbər standartlarına əməl edilməməsi, müxtəlif dezinformasiya və feyk xəbərlərin yayımlanması, hətta peşə norma və prinsiplərinin pozulması ilə nəticələnir, təsadüfi insanların mediaya gəlişi ilə Azərbaycan milli mətbuatının dəyərlərinə və jurnalistikanın ali fəlsəfəsinə zidd olan "reket jurnalistika" kimi neqativ halların mövcudluğuna səbəb olur. Bu baxımdan, məhz vətəndaş jurnalistikası kimi müasir dövrümüzün reallığından çıxış edərək jurnalistikaya həvəsi olan, gələcəyini bu peşə ilə bağlamağı arzu edən, lakin müəyyən səbəblərdən bu ixtisas üzrə ali təhsil ala bilməyən gənclərin maariflənditilməsi, peşəkar jurnalist kimi yetişməsi üçün müxtəlif seminar və təlimlərin təşkil edilməsi xüsusilə vacibdir.

Burada başqa diqqət yetirilməli vacib məsələ, mediada çalışan həmkarlarımızın yeni peşə standartlarına bələd olmaları, baş verən yeniliklərı tətbiq etmək bacarıqlarına yiyələnmələri, mütəmadi şəkildə peşə vərdişlərini təkmilləşdirmələri, ixtisaslarını artırmaları ilə bağlıdır. Bildiyimiz kimi, media hər zaman dinamik və dəyişkən bir sahə olub. Texnologiyalar inkişaf edir, jurnalistikanın siması dəyişir, çevik, rəqəmsal, konvergent jurnalistika formalaşır. Artıq ənənvi KİV getdikcə öz yerini yeni mediaya verir. Janrlar dəyişir, jurnalistikanın prinsipləri, jurnalistikanın fəlsəfəsinə baxış yenilənir. Bu baxımdan ixtisasla bağlı təkmilləşdirmə kurslarının mütəmadi olaraq təşkil edilməsi də əhəmiyyətli məqamdır.

Çox müsbət haldır ki, agentliyin nizamnaməsində media sahəsində mütəxəssislərin hazırlanması istiqamətində əlavə təhsilin təşkili məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. 1928-ci ildən ölkəmizin ali jurnalistika təhsilinin ocağı olan, hər zaman öz dəyərlərinə sadiqliyi ilə seçilən Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi də bu məsələlərdə Medianın İnkişafı Agentliyinə dəstək verməyə hazırdır və bunun üçün mükəmməl texniki bazamız mövcuddur. Qeyd etmək istərdik ki, Jurnalistika fakültəsi olaraq tədrisdən kənar saatlarda ixtisasla bağlı trening və kursların təşkil edilməsi məsələsinə hər zaman ciddi önəm vermişik və bu sahədə müəyyən təcrübəmiz də mövcuddur. *Son bir neçə ildə təşkil etdiyimiz "Gənc Jurnalistlər klubu", "Beynəlxalq Jurnalistika Məktəbi", "Tələbədən tələbəyə", "Akademik yazı qaydaları", "Poliqrafiya və dizayn kursları", eləcə də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin də dəstəyi ilə Dinc Dünya Araşdırmalar Mərkəzi ilə birgə 3 il ardıcıl olaraq "Konflikt jurnalistikası", Vergilər Nazirliyi ilə birgə "İqtisadi jurnalistika", Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə Aqrar könüllüləri ilə birgə "Aqrar jurnalistika" təlimlərinin təşkili, AMEA Mərkəzi Elmi Kitabxanası ilə birgə "Wikipedia qruplarının" yaradılmasını buna misal göstərmək olar.*

Agentliyin nizamnaməsində onlayn media, çap mediası və audiovizual media işinin qurulması və onların inkişafına nail olunması istiqamətində görüləsi işlərin konturları öz əksini tapıb. İnanırıq ki, qurumun icraçı direktoru Əhməd İsmayılov mediamızın fəaliyyətini müasir tələblər səviyyəsində qurmaq potensialına malik olan kadr kimi qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək. Medianın İnkişafı Agentliyinə, onun bütün kollektivinə bu mühüm işlərində uğurlar arzulayır, müvəffəqiyyətlər diləyirik.

***Vüqar Əliyev,***
***Jurnalistika fakültəsinin dekanı***

# “Cəsur döyüşçü” medalı ilə təltif olunan qazi: “Yerə səs dinləmə cihazı da quraşdırmışdılar ki…”

***Vətən müharibəsi Azərbaycan tarixinə zəfər salnaməsi kimi düşdü. Tarixin bu qızıl səhifələrini yazanlar isə, əlbəttə, döyüşçülərimizdir. Biz cəbhədən yeni xəbər gözləyəndə, onlar keçilməz cığırlarla, mürəkkəb dağ yolları ilə irəliləyirdilər. Hansı çətinliklərdən keçdiklərini heç birimiz təsəvvür edə bilmərik. Amma onlara borcumuz var. Vətəndaşlıq, vəfa borcu.***



***44 günlük döyüşlərdə əzmlə, cəsarətlə mübarizə aparanlardan, şücaət nümunəsi göstərənlərdən biri də Elmir Səftərovdur. O, 2013-cü ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib.***

44 günlük döyüşlərdə əzmlə, cəsarətlə mübarizə aparanlardan, şücaət nümunəsi göstərənlərdən biri də **Elmir Səftərovdur**. O, 1996-cı ilin martın 24-də Şamaxıda anadan olub. Şamaxı rayonu Heydər Hüseynov adına Çarhan kənd orta məktəbində təhsil alıb. ***2013-cü ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib.*** 2019-cu ildə isə hərbi xidmətə yollanıb. Özünün dediyi kimi, bundan sonra yaşadıqları xatirəsində əbədi iz qoyub: “Bölmələrimiz hələ Tovuz hadisələri zamanı Kəlbəcər və Ağdərə istiqamətində düşmənə zərbə vurmaq üçün hazır vəziyyətə gətirilmişdi. Mən AQS-30 atıcısı idim və bu silahdan istifadəni kifayət qədər mənimsəmişdim. Ümumiyyətlə, keçirilən hazırlıqlarda nümunəvi xidmətlə fərqlənmiş, özümü yaxşı tərəfdən göstərmişdim. İş elə gətirdi ki, ilk günlərdən etibarən İkinci Qarabağ müharibəsinin iştirakçısına çevrildim. Taborumuz Kəlbəcər istiqamətində hərəkətə keçdi. Amma müharibə başladıqdan üç saat sonra komandirimizin şəhadətə qovuşması və ərazinin relyefinin mürəkkəbliyi əməliyyatımızı ləngitdi. Beləliklə, Talış, Suqovuşan istiqamətində hücum əməliyyatına davam etdik. Xeyli şəhid və yaralımız oldu. Lakin heç nə bizi yolumuzdan döndərə bilmədi. Oktyabrın 1-də yüngül dərəcəli travma yara aldım. Sağalandan sonra yenidən ordu sıralarına qatıldım”.

Qazimizin sözlərinə görə, düşmən məğlub olmamaq üçün bütün hiylələrdən istifadə edirdi: “Onu da deyim ki, digər istiqamətlərdəki bölmələrdən fərqli olaraq biz birbaşa, yəni xüsusi təyinatlı qoşunsuz, bayraqdarsız, hazırlıqsız hücuma keçirdik. Dediyim kimi, relyef çox çətin idi. Ərazi meşəliklərlə əhatələnmişdi. Yollar və hücuma keçəcəyimiz yerlər isə mina ilə dolu idi. Minaya düşə bilməyəcəyimiz istiqamətlə irəlilyirdik. Lakin bu da ziyanımıza idi. Çünki hiylələr düşmən bilərəkdən bizi mühasirəyə salmaq istəyirdi. Düzü, bir neçə dəfə bacarmışdılar da. Amma biz də əzmlə irəliləmiş və ermənilərin bir neçə postunu almışdıq. Ən mühüm postları betonlarla əhatələnmişdi. Üstəgəl, bizi kameralarla izləyirdilər. Bu azmış kimi yerə səs dinləmə cihazı da quraşdırmışdılar ki, gəldiyimizi bilib tədbir görsünlər. Hava çox dumanlı idi. Hər vəchlə irəliləməyimizə mane olmaq istəyirdilər. Biz belə vəziyyətdə döyüşürdük. Təcrübəmizin az olmasına, ərazini tanımamağımıza rəğmən, cəsarətimiz qələbəyə kifayət etdi. Bir çox döyüş yoldaşlarım kimi, mən də şücaətimə görə “Cəsur döyüşçü” medalı ilə təltif olundum. Allah zəfərlərimizi bol eləsin!”.

***Kənan Novruzov,***
***Jurnalistika fakültəsinin magistrantı***

## Rəsm müsabiqəsi: “Vətən Müharibəsi BDU tələbələrinin gözü ilə”

Müsabiqəyə ürəyi Vətən sevgisi ilə döyünən hər bir tələbənin parlaq zəfərimizi, uzun illər həsrətində olduğumuz əzəli Vətən torpağının səfalı təbiətini, rəşadətli ordumuzun şanlı Qələbəsini, əsgərlərimizin döyüş ruhunu əks etdirən əsərlər qəbul olunur.

Rəsmlərin işlənmə texnikası sərbəstdir.

Müsabiqəyə təqdim olunan rəsmlərin aşağı sağ küncündə tələbənin adı, soyadı, təhsil aldığı fakültə qeyd olunmalıdır.

Müsabiqədə yalnız BDU-nun tələbə və magistrantları iştirak edə bilərlər.

Rəsmlər (skan olunmuş formada) müəllifin tələbə vəsiqəsinin surəti ilə birlikdə 2021-ci il yanvar ayının 15-dək humanitar.meseleler@bsu.edu.az ünvanına göndərilməlidir.

Təqdim olunmuş rəsmlər Müsabiqə komissiyası tərəfindən qiymətləndiriləcək və qaliblər diplom və pul mükafatı ilə təltif ediləcəkdir:

*Birinci yer - 300 manat*
*İkinci yer - 250 manat*
*Üçüncü yer - 200 manat*

***Qalib elan edilmiş rəsmlər BDU-nun rəsmi saytı, sosial media hesabları və “Bakı Universiteti” qəzetində dərc olunacaqdır.***
***Əlavə məlumat üçün: (+994 50) 986 84 44***

# BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin direktoru, tanınmış bəstəkar Nailə Mirməmmədlinin əziz xatirəsinə



**04.01.2021... Çox acı bir xəbər aldıq. Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Tanınmış bəstəkar, BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin direktoru, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, Nailə Mirməmmədli ömrünün 59-cu ilində vəfat etmişdir.**

Nailə Mirməmmədli 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1968-1979-cu illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində fortepiano ixtisası üzrə təhsil almışdır. Nailə Mirməmmədli 1981-1985-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində musiqişünas, dirijor, xormeyster, vokal, aranjiman, orkestrovka ixtisasları üzrə təhsil almış, təhsilini Fərqlənmə Diplomu ilə başa vurmuşdur.

Təhsilini davam etdirmək məqsədi ilə Nailə Mirməmmədli 1994-1997-ci illərdə Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasında musiqişünaslıq və Tofiq Quliyevin sinfində (Tofiq Quliyevin ilk və son tələbələrindən biri) bəstəkarlıq ixtisası üzrə təhsil almışdır. 1994-2004-cü illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində müəllim, "Bənövşə" xorunda xormeyster və ansambl rəhbəri vəzifələrində çalışmışdır. 2003-cü ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi fakültəsində pedaqoji fəaliyyətini davam etdirmişdir. 2020-ci ildən Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə yeni yaradılan Mədəniyyət-yaradıcılıq Mərkəzinin direktoru vəzifəsində çalışırdı.

Bəstəkarın Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği sahəsindəki uzunmüddətli səmərəli fəaliyyəti qiymətləndirilmiş, 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

N.Mirməmmədli 500-dən artıq musiqinin bəstəkarı, xor aranjimanı, alətşünaslıq, musiqi və onun tədrisi haqqında 70-ə yaxın elmi məqalə, BDU TV-də hazırlanan 20-yə yaxın musqili kompozisiyanın bəstəkarı olmuşdur.

COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində hazırladığı “Evdə qal” musiqisi, Vətən müharibəsi dövründə onun rəhbərliyi ilə hazırlanan “Zəfər Marşı”, “Şəhid anasıyam” kompozisiyası ölkə ictimaiyyətinə təqdim olunmuş və böyük rəğbətlə qarşılanmışdır.

BDU-nun 100 illik yubileyində səsləndirilən, BDU ailəsinin hər bir üzvünün dilində əzbərə dönən Bakı Dövlət Universitetinin himninin musiqisini bəstələmişdir.

Tofiq Quliyev məktəbinin istedadlı yetirməsi və davamçılarından olan Nailə Mirməmmədli musiqi irsimizin nailiyyətlərindən bəhrələnərək müxtəlif janrlarda qiymətli əsərlər meydana gətirmişdir. Müxtəlif illərdə bəstələdiyi instrumental, vokal, simfonik, xor və kamera əsərləri bəstəkara şöhrət qazandırmışdır. Azərbaycan kinematoqrafiyasının bir sıra filmlərinə - "Böyük ömrün davamı" (2007)"Gecə qonağı" (2015), "Qayıdış" (2016) musiqilər bəstələmişdir. "Azərbaycan səs salacaq", "Xocalı", "Laçın intizarda, Şuşam dardadır", "Azərbaycan bayrağı", "Ulu Öndər", "Əlvida", "Vətən", "Ana", "Azərbaycan", "Qovuşmaz", "İstiqlal günü" kimi məşhur musiqiləri bəstələmişdir.

Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndəsi Nailə Mirməmmədli musiqi mədəniyyətimizin inkişafında əhəmiyyətli rol oynamış sənətkarlardandır. Onun özünəməxsusluğu ilə səciyyələnən geniş diapazonlu yaradıcılığı Azərbaycanın zəngin musiqi sənəti salnaməsinin parlaq səhifələrindən birini təşkil edir.

Tanınmış bəstəkar, pedaqoq və səmimi insan Nailə Mirməmmədlinin xatirəsi BDU ailəsinin qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli, Nəsir Əhmədli

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 29.01.2021

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.